Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimai-siyasi, publisistik qəzet №17 (1273) 15 may 2025-ci il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır

# YANAN ÜRƏYİN TÜRKÜLƏRİ, YAXUD ZƏFƏR YOLUNUN SALNAMƏSİ

## (Mahirə Nağıqızının yaradıcılığı haqqında milli ədəbi proses kontekstində düşüncələr)



TƏYYAR SALAMOĞLU

*IV YAZI*

### Xocalı faciəsi və şəhidlik mövzusu vətəndaş şair mövqeyinin estetik ifadəsi kimi

Şübhəsiz ki, bütün digər vətəndaş şairlərimiz kimi Mahirə də gələcəyə inamla baxıb. Mübarizəmizin "bu gün də, yarın da" davam edəcəyinə inanıb. Hardasa oxumuşdum ki, (deyəsən, Əlabbasın "Qaraqovaq çölləri" romanında) torpaq itkisi məğlubiyyət deyil, məğlubiyyət xalqın bu itki ilə barışdığı zamandan başlayır. Azərbaycan xalqı heç vaxt bu itki ilə barışmayıb. Dövlət siyasətimiz də elə qurulmuşdu ki, Ali Baş Komandanın dəqiq ifadə etdiyi kimi "imkan vermədik ki, işğalla bağlı olan tarix unudulsun". Bunun isə məntiqi o idi ki, bəli, biz torpaq itkisinə məruz qalmışdıq, ancaq işğalla barışmamışdıq, deməli, məğlubiyyətdən söhbət gedə bilməzdi. Xalqımızın və dövlətimizin barışmazlıq siyasətində eyni bir hədəfə vurması son nəticədə bizi Qələbəyə qovuşduran amil oldu. Barışmazlıq siyasətinin ictimai-siyasi həyatımızda təzahür edən çox amilləri var. Və düşünmək olar ki, bütün amillərin hamısı Vətən sevgisindən keçib həyata vəsiqə alır və real gücə çevrilir. Ona görə də Mahirə şeiri keçən hər gündə milli yaddaşı oyandırır, bu yaddaşda Vətənin obrazını bütövləşdirir, itirilmiş torpaqlarımız hesabına bu bütövlüyə milli düşüncədə hər hansı bir xələl gəlməsinə imkan vermir. "Vətəndir" kimi şeirləri yaranır:

Bu vətən deyilən torpaq deyil ki,
Ananın dizinin yanı-vətəndir.
Başını qoymağa bir sinə varsa,
Ruhuna beşiksə, tanı, vətəndir.

"Ay Vətən!", "Qayıtmayam", "Vətən", "Vətən", "Qara torpaq", "Vətən, ay Vətən" şeirlərinin yaranması "ruhumuza beşik Vətən" torpaqları uğrunda 2016-cı ilin ilk günlərindən, tariximizə "Aprel döyüşləri" kimi düşən zamandan başlayır, "Günnüt zəfəri"nə qədər davam edir. Birinci Qarabağ müharibəsindən sonra, "Aprel döyüşləri" və "Günnüt zəfəri" ilə xalqımızın torpaqlarımızın geri qayıdacağına öləzimekdə olan inamı (bu cəhəti Ali Baş Komandan çıxışlarının birində xüsusi vurğulamışdı) özünə qayıdır. Mahirənin yuxarıda adını çəkdiyimiz şeirləri bu inamla yazılıb, bu inamın milli düşüncədə günü-gündən möhkəmlənməsinə hesablanıb. Zərrə qədər də olsa şübhə etmirik ki:

Bitər sərhədlərin bu yer üzündə,
Qəlbimdə sərhədin nədən bitmədi?

- misraları ilə başlayan, Vətən anlayışına elə ilk misralarında çox dərin poetik açılış verən "Vətən" şeirindəki raport və səfərbərlik ruhu, canlanan vətəndaşlıq ruhu, sonsuz Vətən sevgisi, bu sevginin millətimizi ayağa qaldıracaq gücü şeirin yazılmasından (şeir 5 iyun 2018-ci ildə yazılıb) bir neçə gün qabaq ordumuzun Günnüt zəfəri ilə birbaşa bağlıdır.



Canımı verərəm səndən ötəri,
Ruhum sağlığınnan xatircəm olsun!-

deyən şairin ilk qələbələrimizdən aldığı ruhun səfərbərlik harayına çevrilməsinin estetik ifadəsi aşağıdakı kimidir:

Ana harayımı eşidər hamı,
Qadınlar, qızlar da bir ərə dönər.
Oğullar seçəcək dost-düşmənini,
Hər biri uğrunda səngərə dönər.

"Salam olsun" kitabında toplanan şeirlərin bir qismi şəhidlik mövzusundadır, sonra Xocalı faciəsi poetik idrakdan keçir, hər ikisi həm bir-birini, həm də Vətən mövzusunu tamamlayır.

Qanlı Yanvar hadisələrindən başlayaraq Azərbaycan ədəbiyyatında şəhidlik mövzusu yeni bir mərhələyə daxil olur. Azərbaycan xalqının milli özünüdərk şüurunu, milli müstəqillik uğrunda mübarizə hərəkatını simvollaşdırır. 20 Yanvarda Vətənin müstəqilliyi uğrunda canından keçənlərin obrazı estetik düşüncədə hərtərəfli bədii ifadəsini tapır. B.Vahabzadənin "Şəhidlər", X.R.Ulutürkün "Gəlir böyük Azərbaycan" və b. çoxsaylı şeir və poemalarda Vətən oğullarının Vətən uğrunda canından keçmək əzmi poetikləşdirilir, Şəhidlər xiyabanı millət oğullarının (və qızlarının) müstəqil yaşamaq haqqını dərkinin simvoluna çevrilir. Azərbaycan xalqının dissident şairi (Heydər Əliyev) isti-isti qələmə aldığı poemasında (mart-iyun 1990) müstəmləkəçi rejimə və bütün haqsızlıq dünyasına qarşı xalqının mübarizə hərəkatının başlandığını elan edir:

Zalımın zəfəri başdan qələtdir,
Zamanın səsini biz də dinlərik.
Dünya gücümüzə yaxşı bələddir,
Hələ biçilməmiş əkilənlərik!

B.Vahabzadə poemadakı "Şəhidlər" adlı parçada şəhidliyin himnini, marşını yaratdı. Bu zamandan başlayaraq şəhidlik milli azadlığın simvoluna çevrildi. Şair bütün poetik istedadı və vətəndaş xarakteri ilə şəhidlərimizin əkdiyi "azadlıq toxumu"nun bir gün boy verəcəyinə, düşməndən amansız intiqam alacağına inamını ifadə etdi:

İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyri, şəriylə.
Torpağın bağrına cəsədləriylə,
Azadlıq toxumu əkdi şəhidlər.

Estetik düşüncədə bu yeni hərəkat heç vaxt səngimədi. Sənətkarlarımız estafeti bir-birlərinə ötürdülər. "Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir" deyimi estetik düşüncədən milli ictimai düşüncəyə ötürüldü, millətin yaddaşı daim təzələndi. 20 Yanvar şəhidlərinin əkdiyi "azadlıq toxumu"nun münbit şəraitə düşməsi, göyərib bar verməsi, "azadlıq ağacı"na çevrilməsi üçün şərait yarandı. Bir qərinə sonra, itirilmiş torpaqlarımız uğrunda yeni mübarizə dövründə II Qarabağ müharibəsinin ərəfəsində, düşmənə sərt üzümüzü göstərdiyimiz ilk vaxtlarda sənətkarlarımız artıq şəhidlərimizin əkdiyi "azadlıq ağacı"ndan söhbət açırdılar:

Özü qocalmaz ki, əsri qocaldar,
Gələcək, gedəcək nəsli qocaldar.
Qəlblərdə vətənə heykəl ucaldar,
Azadlıq ağacı əkər şəhidlər.

Sonuncu misranı Bəxtiyarın "Azadlıq toxumu əkdi şəhidlər" misrasının Mahirə şeirinə sızan mexaniki transformasiyası hesab etmək mahiyyətə varmamaq demək olardı. "Toxum"un "ağac"a çevrilməsi aradan keçən bir qərinəlik zamanda milli şüurda vətəndaşlıq hissinin göyərib, böyüyüb boy atmasının, şəhidliyin Azərbaycan əsgəri üçün ölməzlik, əbədiyaşarlıq statusu qazanmasının poetik ifadəsi idi. İndi şəhidlərə həsr olunmuş şeirlər "Şəhid nəğməsi" kimi dərk olunur, şəhidliyin simvollaşdırdığı böyük əməllərdən söhbət açılırdı. Biz artıq başa düşürdük ki:

*(Davamı 7-ci səhifədə)*

# YANAN ÜRƏYİN TÜRKÜLƏRİ, YAXUD ZƏFƏR YOLUNUN SALNAMƏSİ

## (Mahirə Nağıqızının yaradıcılığı haqqında milli ədəbi proses kontekstində düşüncələr)

*(Əvvəli 1-ci səhifədə)*

Onların sağlığı döyüşən əsgər,
Məzarı-Vətənim istehkamıdır.
Biz artıq dərk edirdik ki:
Hər biri məşəldi qaranlıqlara.

Mahirə şeiri şəhidliyin elə məna potensiallarından söhbət açırdı ki, bu mövzuda yazılmış çoxsaylı poetik örnəklərə rəğmən, həmin məna potensialları bizi içimizdən böyüdür, bizə şəhid olmağın müqəddəsliyi hissini yaşadırdı:

Yerə qan tökdülər, ruh göyərtdilər,
Tarixi yazdılar Vətən daşında.
Minillik xalqlara dərs öyrətdilər,
Bu ərən oğullar cavan yaşında.

Bir ana bətnindən düşüb, böyüyüb,
Min-min analara oğul oldular.
Hərəsi bir ocaq adından gedib,
Vətən ocağını qaladı onlar.

Şəhidlər, Şəhidlər, sabaha bu gün,
Canınızdan keçib, qurban verdiniz.
Millətə diz çöküb baş əymək üçün,
Şərəfli, müqəddəs ünvan verdiniz.

Mahirənin dastanında - "Azərbaycannamə"sində xalqımızın tarixin amansız faciəsi ilə üz-üzə qaldığı daha bir hadisə haqqında danışılır. Bu, Xocalıda baş verənləri şairənin poetik düşüncədən keçirib milli yaddaşa ötürməsinə, milli yaddaşımızı bir daha oyatmaq, oyaq saxlamaq istəyinə hesablanır. Mahirənin "Xocalı" türkülərindən biri hadisənin salnaməsini verir, olub keçənləri poetik sözün yaddaşına ötürür. Hadisələr o qədər real və canlı təsvir olunur ki, biz qanlı düzlərə səpələnmiş Xocalı şəhidlərinin başı üstündə dayanıb öz hüznlü yaşantılarının türküsünü dilə gətirən ozanı vizual olaraq görürük. Sanki ozan bizə min illər bundan qabaq baş vermiş qanlı olaylardan bəhs edir. Çünki baş verənləri yaşadığımız zamanın gerçəkləri kimi dərk etməyə çətinlik çəkirik:

O gecə Xocalıda
Daş divar güllələndi,
Adamlar güllələndi,
Ağaclar güllələndi.

"O gecə" ifadəsi bizi ozanların dilindən oxuduğumuz, aşıqların söylədiyi tarixin hansısa bir layındakı hadisələrin baş verdiyi zamana aparır. Biz baş verənləri günümüzün gerçəkləri, xalqımızın başına gətirilən analoqu olmayan dəhşətlər kimi qavramağa çətinlik çəksək də, baş verənləri özümüzdən uzaqlaşdırmağa çalışsaq, qulaqlarımızın eşitdiklərini yuxuda gördüyümüz, reallıqdan, bizdən uzaq olan hadisələr kimi qavramaq istəsək də, ozanın qopuzunun hüznlü ahəngində söylədikləri bizi nağıl dünyasından ayrılmağa, günün dəhşətlərini dərk etməyə səsləyir. Özanın Dədəm Qorqudun "Xanım, hey" çağırışlarını xatırladan fəryadı dünənin olaylarını yox, bu günün faciəsini dilə gətirir:

Rus-erməni tankları,
Nə var tırtılnan əzdi.
Qanla qar suvardılar,
Qandan ayaz öləzdi.
Anaların fəryadı,
Diksindirdi Tanrını,
Qan donmağa qoymadı,
Uşaq ayaqlarını.

Dinc, silahsız adamlar,
Ölümnən baş-başaydı,
Xocalıda olanlar,
Amansız tamaşaydı.

Xocalı faciəsi haqqında çox yazılıb. Tənqidçi V.Yusifli bu yazılanlardan birini xüsusi olaraq fərqləndirir: "Dünyanın ən dəhşətli bir faciəsi-Xocalı qırğınından xalqın ürək yanğısını ifadə edən, "dərdimizin qan rəngini" sözə çevirən çoxlu əsərlər yaranıb. Nurəngiz Günün "Xocalı simfoniyası" poeması o sıradan birincidir, təkdir, təkrarsızdır...." (Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. İki cilddə. Icild. Bakı. Elm və təhsil.2016.s.182). Tənqidçi fikrində davam edərək poemadakı bir məqam üzərində xüsusi dayanır: "Poemada təsirli səhnələr çoxdur, amma ən təsirli, şüura işləyən bir səhnə var ki, Nurəngiz Günün söz palitrasında o səhnə heç vaxt öz boyasını, rəngini itirməyəcək. O, faciədə həlak olan günahsız körpələrdən söz açır:

Ah, boğulur çocuqlar,
Yorulur torpağın altında,
Cocuqlar!
Əlləri, qolları yorulur...
Heç bir şey anlamır Cocuqlar!
Cocuqlar top-top oynamaq istəyir
torpağın altında" (s.184)

Razılaşırıq. Razılaşırıq ki, misal gətirilən parçada Xocalı faciəsinin uşaq dünyasında qoyduğu izlər çox təsirli detallarla verilib, ibrətli səhnələr yaradılıb. Bütün dünyaya - xüsusən humanizm tülünə bürünmüş Qərb-Xristian dünyasına ciddi mesajlar ötürülüb. "Xocalı simfoniyası"nın "dərdimin qan rəngi"ni sözə çevirən təkrarsız sənət əsəri olmasına da inanırıq, ancaq "təklik"i mübahisə doğurur. Çünki Xocalıda baş verənlər öz müdhişliyi ilə Azərbaycan xalqının sinəsində çox dərin yaralar açıb. Bu dərin yaraların faciədən ötən hər gündə, hər ayda, ildə yeni-yeni istedadların qələmində təkrarsız səhnələrinin yaradılması təşəbbüsləri qaçılmazdır, mütləqdir, bədii qanunauyğunluqdur. Mahirənin Xocalıya həsr etdiyi şeirlər bu mülahizənin həyatiliyini sübut edən bədii nümunələr sırasında yer alır, Xocalı faciəsinin böyük "Söz"ə gətirilməsinin təkrarsızlığının, ilk növbədə, mövzunun özündən qaynaqlandığını önə çıxarır. Xocalıda baş verənlər müqabilində sənətkarın yaşadığı hisslərin, beynindən keçənlərin hüdudsuz bir həddə çatmaması, estetik fikrin hadisənin ağlagəlməz detallarını oxucuya çatdırmaması mümkünsüzdür. Və, əlbəttə, bütün bu yaşantılar fitri istedadın nəhayətsizliyi ilə hormoniyada meydana çıxırsa. Mahirənin haqqında bəhs açdığımız "Xocalı" şeirindəki "qanla qarın suvarılması" , nəticədə qanın torpağa, qar üstünə axan çoxluğundan, onun istiliyindən havanın ayazının, şaxtasının öləziməsi erməni vandalizminin, ermənının faşist təbiətinin təkrarsız məcazlaşmış ifadəsidir, estetik baxımdan isə, füzuliyanə mübaliğənin ən mükəmməl nümunəsidir. Faciənin miqyassızlığı, ağırlığı, müdhişliyi haqqında ən ağır sözlər tapıb demək olar, lakin heç bir prozaik söz:

Qanla qar suvardılar,
Qandan ayaz öləzdi -

misralarının yaratdığı dəhşətli mənzərəsini verə bilməz. Yaxud:

Qan donmağa qoymadı,
Uşaq ayaqlarını-

deyiminin təsiri, bircə bu iki misranın təsiri Xocalıda baş verənlərin bütün dəhşətini duymağa, ermənının antiinsani, antibəşəri xislətini ifşaya büsbütün bəs edərdi. Hələ şairənin fəryadları "Tanrını diksindirən" Ana obrazını poetik fikrin arsenalına ustalıqla daxil etməsi, "Xocalıda olanlar"ın amansız tamaşa kimi dünyaya təqdimindəki hüdudsuz ironiya və bu kimi çoxsaylı bədii detallar xalqımızın "qaysaqlanmaz süngülənən yarası" haqqında yeni-yeni bənzərsiz əsərlərin yazılacağına inam yaradır. Bu inamı Mahirənin "Xocalı" ünvanlı ikinci şeiri bir qədər də gücləndirir. Bədii mənalandırmanın bir bəndə sığışdırılan ümumiləşdirmə gücünə, hadisənin fəlsəfi mahiyyətinin misralara çevrilən məzmununa diqqət edək:

Bir millətin haqq-divana sorğusu,
Anaların heykəlləşmiş qorxusu,
Ahılların dəhşət dolu yuxusu,
Cahılların yaddaşıdı Xocalı.

20 Yanvar faciələri haqqında düşünəndə də, Xocalıda baş verənləri yaddaşının süzgəcindən keçirəndə də, itirilmiş torpaqlarımızın, doğma yurd yerlərindən qaçqın-köçgün düşmüş soydaşlarımızın sonsuz ağrılarını canının ağrısı kimi yaşayanda da, bu çoxsaylı "can ağrıları" poetik yaddaşı oyadıb böyük "Söz"ə çevriləndə də bir hiss, bir fikir şairənin varlığını elektrik qurğusu kimi daim titrədir; İntiqam hissi, düşüncəsi bütün varlığına hakim kəsilir. Bu hiss, bu düşüncə Mahirə şeirinə ana fəryadının əks-sədası kimi daxil olur. Onun varlığına mübariz bir ruh hakim kəsilir.